

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 164 (23.806)

8 sentyabr 2021-ci il, çərşənbə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


### Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. Dövlətimizin başçısı qəbulda çıxış edərək bu etimadın doğruldulacağına, idman sahəsində, gənclər siyasəti sahəsində yaxşı nəticələr olacağına əminliyini bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, bütövlükdə idman sahəsi Azərbaycanda sürətlə inkişaf edibdir və bu gün dünya miqyasında Azərbaycan idman ölkəsi kimi tanınır. Beynəlxalq yarışlarda idmançılarımız yüksək nəticələr göstərirlər. Eyni zamanda idman sahəsində buraxılan nöqsanlar da ciddi araşdırılmalıdır, ciddi təhlil aparılmalıdır. Xüsusilə Olimpiya Oyunlarına hazırlıq dövründə bəzi federasiyalarda işlər qeyri-qənaətbəxş olmuşdur və bütün federasiyalarda mövcud olan vəziyyət ciddi təhlil edilməlidir.

Dövlətimizin başçısı vurğulayıb ki, bütövlükdə gənclərimizin tərbiyə edilməsi prosesi diqqət mərkəzində olmalıdır. İkinci Qarabağ müharibəsindəki parlaq tarixi Qələbəmiz gənclərin tərbiyə işində əsas rol oynamalıdır. Bu şanlı tarixi yaşatmaq, qorumaq və gəncləri bunun əsasında tərbiyə etmək üçün Gənclər və İdman Nazirliyinin üzərinə böyük vəzifələr düşür.

Gənclər və idman naziri Fərid Qayıbov göstərilən etimada görə ölkə başçısına dərin minnətdarlığını bildirib, əmin olduğunu söyləyib ki, sağlam cəmiyyətdə yaşayan Azərbaycan gəncləri yaxın gələcəkdə də öz yeni uğurları, idmançılarımız isə yeni qələbələri ilə Azərbaycan xalqını sevindirəcəklər.



## Naxçıvan Muxtar Respublikası təhsil işçilərinin konfransı keçirilib



*Sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası təhsil işçilərinin konfransı keçirilib. Konfransda muxtar respublikanın təhsil müəssisələrinin rəhbərləri, nazirliyin əməkdaşları, qabaqcıl müəllimlər iştirak ediblər.*

Konfransı giriş sözü ilə təhsil naziri Rəhman Məmmədov açaraq məruzə edib. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində təhsil müəssisələrinin maddi-tədris bazasının möhkəmləndirilməsi sahəsində işlər 2020-2021-ci tədris ili ərzində də davam etdirilib, Culfa Rayon Təhsil Şöbəsi, Şərur rayon Qarabürc və Şəhriyar, Babək rayon Nəcəfəlidizə, Ordubad şəhər 1 nömrəli və Nüsnüs, Culfa rayon Camaldın kənd tam orta məktəbləri üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib, Ordubad və Culfa rayon məktəbdənkənar təhsil müəssisələrində innovativ dərnəklərin fəaliyyəti üçün zəruri şərait yaradılıb. Hazırda Naxçıvan Şəhər Kimya-Biologiya Təmayüllü Liseydə, STEAM Təlim-Tədris Mərkəzində, Şərur rayon Çərçiboğan, Dərvişlər, Babək rayon Sirab, Göynük, Araz, Ordubad rayon Əndəmic, Validər, Dırnıs, Pəzməri məktəbləri olmaqla, ümumilikdə, 11 təhsil müəssisəsində binaların tikintisi və ya yenidən qurulması davam etdirilir.

Diqqətə çatdırılıb ki, muxtar respublikada təhsilin beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolunda da uğurlu addımlar atılır. Belə ki, qısa müddət ərzində 53 təhsil müəssisəsində STEAM kabinəsi yaradılıb, STEAM təhsili ilə bağlı nəşrlər hazırlanıb. Əhəmiyyəti nəzərə alınaraq 2021-ci il 7 iyun tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncamın icrası ilə bağlı zəruri tədbirlər davam etdirilir. Hazırda 50 ümumtəhsil məktəbində STEAM kabinələrinin yaradılması istiqamətində iş aparılır. Qeyd olunub ki, yeni tədris ilində həmin ümumtəhsil məktəblərində STEAM kabinələrinin yaradılması başa çatdıqdan sonra, ümumilikdə, 104 təhsil müəssisəsində 22 mindən çox şagird STEAM təhsilinə cəlb olunacaqdır.

Nazir təhsil sahəsində tətbiq olunan yeniliklərlə bağlı məlumat verərək qeyd edib ki, ötən tədris ilində Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilib, nazirliyin nəzdində "Təhsil Kursları" Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilib, "İmtahan Mərkəzi" yaradılıb, Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi publik hüquqi şəxsə çevrilib, təhsil müəssisələrində 186 idman klubu yaradılıb.

Vurğulanıb ki, istedadlı şagirdlərin üzə çıxarılması, onların yaradıcılıq potensiallarının inkişaf etdirilməsi də diqqətdə saxlanılıb, ilk dəfə olaraq STEAM təhsil metodu əsasında hazırlanmış layihələrdən ibarət texnosərgi, dərnək üzvlərinin əl işlərindən ibarət sərgi-satış, şagirdlər arasında "Robotexnika" və "Bədii gimnastika", "Məktəblilərin dram müsabiqəsi", "Məktəblilərin təsviri və dekorativ-tətbiqi sənət müsabiqəsi" keçirilib, "Sabahın müəllimi", "Sabahın tədqiqatçıları" layihələri, "Tariximizi qoruyaq və yaşadaq!" aksiyası uğurla davam etdirilib.

Vurğulanmışdır ki, ötən tədris ilində kadr hazırlığı istiqamətində zəruri tədbirlər həyata keçirilib, 1200-dən çox müəllim müxtəlif təlimlərə, kurslara cəlb olunub, təhsilverənlərin sertifikasiyası aparılıb. İşə qəbulla bağlı keçirilən müsabiqələrdə uğurlu nəticə qazanan gənc kadrlardan 307-si müəllim, 55-i isə məktəblərdə müxtəlif vəzifələrə təyin olunub. Bunlarla yanaşı, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən təhsildə inkişaf və innovasiyalar üzrə V qrant müsabiqəsində muxtar respublika müəllimlərindən 4-ü qalib olub.

Bildirilib ki, 2020-2021-ci tədris ilində ümumtəhsil məktəblərini tam orta təhsil bazasında bitirən məzunlardan 17-si "Qızıl", 17-si "Gümüş" nişana, 41-i fərqlənmə attestatına, ümumi orta təhsil bazasından isə 121-i fərqlənmə attestatına layiq görülüb, şagirdlərdən 26-sı Respublika fənn olimpiadasının qalibi olub. Məzunlardan 2470-i ali məktəblərə keçirilən qəbul imtahanlarında iştirak edib, onlardan 1612-si, yaxud 65 faizi ali təhsil müəssisələrinə qəbul olub. 261-i imtahanlarda 500-700 bal arası nəticə göstərib.

Təhsil naziri muxtar respublika təhsilinin inkişafı üçün yaratdığı şəraitə görə təhsil işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Məruzə ətrafında müzakirələr aparılıb, Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdiri Baba Əliyevin, Kəngərli Rayon Təhsil Şöbəsinin müdiri Emin Məmmədxanlının, Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanovun, Naxçıvan Qızlar Liseyinin direktoru Aida Allahverdiyevanın, Naxçıvan Texniki Yaradıcılıq Mərkəzinin direktoru Nubar Allahverdiyevanın və Naxçıvan Şəhər Peşə Liseyinin direktoru Sona Əliyevanın çıxışları dinlənilib.

Konfransın sonunda muxtar respublikada təhsilin inkişafı ilə bağlı "Kanal 35" televiziyasının hazırladığı "Təhsilin inkişaf yolu" filminə baxış olub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində 2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilib.*

## Payız-qış mövsümünə hazırlıqla bağlı müşavirə olub



Müşavirədə nazir Mayis Əliyev çıxış edərək bildirib ki, nazirliyin İstehsalın təşkili, planlaşdırılması və geologiya şöbəsi aid idarə və müəssisələrlə birlikdə 2021-ci illərin payız aylarında yeni yaşıllıqların salınması ilə bağlı hazırlıqlara başlamalı, yeni meyvə bağlarının salınması, bərpa işlərinin planlı aparılması üçün sentyabr ayının birinci yarısınadək ərazilərin sxem – planlarını hazırlamalı, ting ehtiyatı müəyyənləşdirilməlidir. Toxumla əkin işlərinə geniş yer verilməli, xüsusilə orta dağlıq, dağətəyi ərazilərdə, meşə fondu ərazilərində toxumla əkin işlərinin aparılması üçün hazırlıqlara başlanılmalıdır. Qurumuş ağaclar müəyyənləşdirilməli, kəsilərək hərbi hissələrə verilməlidir. Meşə fondu ərazilərinin talalarında, kəsilmiş quru ağacların yerində yeni yaşıllıqların, ağacların salınması diqqətdə saxlanılmalıdır.

Qeyd olunub ki, Geoloji Axtarış və Kəşfiyyat İdarəsi mövsümə uyğun olaraq çöl işlərinin aparılmasını davam etdirməli, kameral işlərin aparılmasına hazırlıqlar görməlidir. Texnika və avadanlıqların saz hala gətirilməsi məqsədilə araşdırmalar aparılmalı, çatışmazlıqlar haqqında arayış təqdim etməlidir. Ətraf mühit və təbii sərvətlərdən istifadəyə Dövlət nəzarəti şöbəsi, Xüsusi mühafizə olunan təbiət əraziləri şöbəsi, Xüsusi mühafizə statuslu idarələr və balıq mühafizə stansiyası tərəfindən brakonyerliyə, qanunsuz ov edilməsinə qarşı ciddi mübarizə aparılmalı, xüsusən Heydər Əliyev Su Anbarı, Arpaçay Su Anbarı, Naxçıvançay, Əlincəçay, Gilançay, Vənəndçay və digər çaylarda vaxtaşırı yoxlama-reydlər keçirilməli, qanunazidd halların baş verməməsi üçün maarifləndirmə tədbirləri davam etdirilməlidir. Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi təbii sərvətlərdən qanunsuz istifadəyə qarşı tədbirlər görməli, bu məqsədlə mütəmadi yoxlama-reydlər təşkil etməlidir.

Vurğulanıb ki, muxtar respublika ərazisində dövlət orqanlarının, vətəndaşların dəqiq hidrometeoroloji, aqrometeoroloji məlumatlarla təmin edilməsi üçün nazirliyin Bioloji mühit və təbii sərvətlərdən istifadənin təşkili şöbəsi və Hidrometeorologiya İdarəsi tərəfindən zəruri tədbirlər həyata keçirilməli, texniki avadanlıqlarla təchizat yaxşılaşdırılmalıdır.

Diqqətə çatdırılıb ki, daşduz, qaba yem ehtiyatı indidən fauna ehtiyatlarının daha sıx məskunlaşdığı, o cümlədən miqrasiya etdikləri yerlərdə toplanmalıdır ki, qış aylarında çətinliklər yaranmasın. Payız-qış aylarında fauna ehtiyatlarının inventarlaşdırılması vaxtında aparılmalı, bununla bağlı arayış hazırlanıb təqdim edilməlidir. Xüsusi mühafizə statuslu idarələr inzibati binaların qış aylarına hazırlanması məqsədilə tədbirlər görməli, mövcud çatışmazlıqların aradan qaldırılması barədə təkliflər hazırlamalı, muzey fondlarının zənginləşdirilməsi istiqamətində fəaliyyətlərini davam etdirməlidir.

Sonda məruzə ətrafında çıxışlar olub.

**Gülcamal TAHİROVA**

## Əmək pensiyalarının maliyyələşdirilməsi yekunlaşmışdır

***Muxtar respublikada həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində iqtisadi və sosial sahədə davamlı inkişaf təmin edilmişdir. Əhalinin bütün təbəqələrinin, o cümlədən cəmiyyətin həssas qrupu sayılan əmək pensiyaçılarının rifah halının yüksəldilməsi, onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində muxtar respublikada mütəmadi olaraq işlər görülür.***

Əmək pensiyaçılarının sosial müdafiəsinə və onların maraqlarının təminatına yönələn növbəti tədbir kimi Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən sentyabr ayı üçün pensiyaçılara bütün növ əmək pensiyalarının ödənilməsi başa çatdırılmışdır. Tələb olunan vəsait fondun xəzinə hesabından müəyyən olunmuş qrafikdən əvvəl pensiyaçıların plastik bankomat kartlarına və kəndlərdə yaşayan pensiyaçıların istəklərinə əsasən poçt ünvanlarına köçürülməklə, pensiyaların maliyyələşdirilməsi yekunlaşdırılmışdır. Hazırda əhaliyə məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin də vaxtında ödənilməsi, həmin şəxslərin şəxsi hesablarına, yaxud poçt ünvanlarına vəsaitin köçürülməsi üçün müvafiq işlər davam etdirilir və qısa zamanda yekunlaşdırılacaqdır.

Məlumat üçün bildirək ki, qanunvericiliyə uyğun olaraq sığorta olunanların pensiya təminatlarında məcburi dövlət sosial sığortahaqqı şəklində toplanan pensiya kapitalı nəzərə alınır. Bu isə insanları sığorta-pensiya sistemində aktiv iştiraka sövq edir. Nəzərə almaq lazımdır ki, məcburi dövlət sosial sığortahaqqı üzrə vəsaitin fondun xəzinə hesabına vaxtında daxil olması, habelə fondun büdcəsinin gəlirləri üzrə proqnoz tapşırıqlara artıqlaması ilə əməl olunması əmək pensiyaları və məcburi dövlət sosial sığortası hesabına ödəmələrin də vaxtında maliyyələşdirilməsinə əlverişli şərait yaradır.

Əmək pensiyaçılarının sosial rifahının yüksəldilməsi üzrə müəyyən olunmuş işlərin icrası sahəsində fond bundan sonra da üzərinə düşən öhdəlikləri layiqincə yerinə yetirməyə çalışacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## “Marş İrəli” layihəsinin 3-cü günü



Hərbi simulyasiyalı layihənin düşərgəsində məskunlaşan gənclər Əlahiddə Ümumqoşun Ordunun zabitlərinin rəhbərliyi ilə saat 07[00]-da səhər idmanına başlayıb, sıra hazırlığı məşğələsi və parada hazırlıqla bağlı məşq prosesində iştirak ediblər.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əlbəyaxa döyüş üzrə baş məşqçi-müəllimi, Əməkdar məşqçi Rəsul Məmmədov tərəfindən icra olunan “Əlbəyaxa döyüş” təlimi də iştirakçıların böyük marağına səbəb olub. Mütəxəssis özünümüdafiə xarakterli bu döyüş üslubunun əhəmiyyəti barədə danışıb, düşmən və ya hər hansı cinayətkar şəxslə təkbətək epizodlarda tətbiq oluna biləcək fəndləri nümayiş etdirib.

Əlahiddə Ümumqoşun Ordunun helikopter və qırıcı təyyarələrinin düşərgə üzərindəki uçuş manevrləri iştirakçılara həyəcanlı və qürurverici anlar yaşadıb. Pilotlarımızın yüksək peşəkarlığı iştirakçılar tərəfindən alqış və dəstək şüarları ilə qarşılanıb.

Gənclər, həmçinin komanda şəklində “Axtar tap” intellektual oyununda iştirak ediblər. Daha sonra iştirakçılar Şahbuz rayonuna yola düşüblər. Onlar burada yerləşən “N” hərbi hissədə nahar edib, ön xətdə xidmət edən hərbi qulluqçular üçün yaradılmış şəraitlə tanış olublar. İştirakçılar müşahidə məntəqələrindən ordumuzun nəzarətində olan əraziləri izləyiblər. Layihə çərçivəsində Batabat gölü, Zorbulaq və Şahbuz Dövlət Təbiət Qoruğuna ekskursiyalar təşkil olunub. Şam yeməyinin ardınca “Milli azlıqlar, tolerantlıq” mövzusunda komanda təqdimatları olub. Bununla da layihənin 3-cü günü sona çatıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***



## Layihə təlimləri gənclərə vətənpərvərlik əzmi, ruh yüksəkliyi aşılayır

*Ölkə gənclərində vətənpərvərlik ruhunun gücləndirilməsi, fiziki dözümlülüyün artırılması məqsədilə sentyabr ayının 5-də start verilən “Marş İrəli” hərbi simulyasiya layihəsinin dördüncü mövsümündə iştirakçıların diyarımız və layihə haqqındakı fikirləri maraq doğurur.*

İlk həmsöhbətimiz, sando idman növü üzrə Avropa çempionu ***Tural Allahverdiyev*** deyir ki, Naxçıvan haqqında indiyə kimi ümumi məlumatım var idi, amma gəlib görmək bu günə nəsib imiş. Orta məktəbdə oxuduğumuz vaxtlardan müəllimimiz tarix dərslərində Naxçıvanın çoxəsrlik tarixindən, buranın insanlarının qonaqpərvərliyi, coğrafiyasının əlvanlığı, təmiz havası, zəngin flora və faunası haqqında bizə maraqlı məlumatlar vermişdi. Azərbaycanın bir çox regionlarına səfər etsəm də, Naxçıvanda olduğum bu iki gün müddətində, həqiqətən, bu günə qədər haqqında eşitdiyim müsbət fikirlərin bir daha şahidi oldum. İnsanların səmimiyyəti, qonaqpərvərliyi bizdə xoş təəssürat oyadır. Ən əsası da odur ki, bu cür layihələrin ard-arda Naxçıvanda təşkil edilməsi, düşünürəm ki, böyük bir əlamətdar hadisədir. Çünki Ali Baş Komandan



cənab İlham Əliyevin vurğuladığı kimi Naxçıvan əsgərləri, daha doğrusu, ordumuzun naxçıvanlı qəhrəmanları 44 günlük Vətən müharibəsində fəal iştirak edərək öz sarsılmaz qüdrətləri, bükülməz dəyanətləri ilə düşmənə gözdağı verdi. Bu gün həm bir Azərbaycan gənci, həm də müstəqil bir dövlətin vətəndaşı kimi şadam, sevincliyəm ki, rəşadətli ordumuzun əldə etdiyi Zəfər hər birimizin simasında böyük xoşbəxtlik yaratdı. Bunun nəticəsidir ki, dövlətimiz tərəfindən biz gənclərin vətənpərvər ruhda formalaşması üçün bir sıra silsilə tədbirlər keçirilir. Bu mənada, həmin tədbirlərin davamı kimi təşkil olunan “Marş İrəli” hərbi simulyasiya layihəsi də sırf gənc nəslin Vətənə sədaqət ruhunda yetişməsi üçün böyük rol oynayır. Artıq bir neçə gündür ki, layihədə fəal şəkildə iştirak edirik. Burada bizlərə göstərilən diqqət, sözün əsl mənasında, təqdirəlayiqdir. Vaxtımızı səmərəli keçirmək üçün təşkil olunan komanda oyunları, hərbi təlim məşqləri həm maraqlı, həm də faydalıdır. Bununla yanaşı, Naxçıvanın bir çox gəzib-görməli yerlərinə ekskursiyaların təşkil olunması bizlərin həm də dünyagörüşünü formalaşdırır. Bu gün də bu səxavətli yurdun ən gözəl məkanlarından biri olan, füsunkar mənzərələrinin sorağını hər yerdə eşitdiyimiz Batabatda olduq. Torpağına ayaq basdığımız ilk andan təmiz havanın insanda yaratdığı xoş ovqatı hiss edir, ruhunla duyursan. Naxçıvanlı dostlarımız deyir ki, yayın ilk aylarında Batabatın mənzərələri tamam başqa olur. Ön xətdə əsgərlərimizin necə ruh yüksəkliyi, rəşadətlə Vətənimizin keşiyində dayanmasını görmək hədsiz qürurvericidir. Müşahidə məntəqələrindən ordumuzun nəzarətində olan əraziləri izləyərkən



bir daha qürurla düşünürsən ki, müzəffər Ordunun, qüdrətli xalqın torpağı basılmaz.

“İnsan yaşadığı yerlə bütünləşir”, – deyən Naxçıvan Dövlət Universitetinin tələbəsi ***Fəridə Allahverdiyeva*** qeyd edir ki, bu şəhərdə kimə yaxınlaşsan, kiminlə həmsöhbət olsan, insanların sənə qarşı göstərdiyi səmimiyyət, qonaqpərvərlik, sözün əsl mənasında, təqdirəlayiqdir. Sözsüz ki, bu gözəl insanlardakı müsbət hissləri Naxçıvanın təmiz havası, büllur kimi saf suyu, gözoxşayan mənzərələri yaradıb. Bu dəfə də başdan-başa bir təbiət muzeyi olan Naxçıvanın qoynunda “Marş İrəli” layihəsində iştirak edirik. Bir məqamı qeyd etmək istərdim ki, burada olduğum üç gün müddətində sanki uşaqlıq xəyalıma az da olsa, bir səyahət etdim. Çünki uşaq olarkən həmişə atama deyirdim ki, kaş hərbi xidmətə qadınları da aparardılar, mən də bir vətəndaş kimi gedib iştirak edərdim, Vətənimin keşiyində dayanardım.



Artıq üç gündür ki, bunu əyani şəkildə yaşayıram və halımdan da çox razıyam. Burada bizlər üçün yaradılan şərait haqqında çox danışmaq olar. Təlimə başladığımız ilk gündən etibarən bütün iştirakçılar “Hamı bir nəfər, bir nəfər hamı üçün!” şüarı ilə bir bütünləşib. Hər gün ard-arda keçirilən silsilə təlim məşqləri, komanda oyunları bizlərdə vətənpərvərlik ruhunun yüksəlməsində, fiziki sağlamlığımızın möhkəmləndirilməsində, inkişaf etdirilməsində müstəsna rol oynayır. Bununla yanaşı, qrup daxilindəki səmimi, necə deyərlər, əsl qardaşlıq münasibətləri də buranın mühitini gözəlləşdirib. Mənim diqqətimi çəkən, ən xoşladığım an isə ötən gün Vətən müharibəsi iştirakçıları ilə baş tutan maraqlı görüşümüz oldu. Onlar danışdıqca, müharibədə yaşadıqları o çətin, ağır hadisələri dilə gətirdikcə yaşadıqları həyəcan gözlərindən hiss olunurdu. O an öz-özümə dedim ki, nə yaxşı ki, azərbaycanlıyam. Nə yaxşı ki, belə müzəffər, müstəqil bir dövlətin vətəndaşıyam. Əminəm ki, istər layihə iştirakçıları, istərsə də digər gənclər mənimlə eyni fikirdədir. Biz güclü bir dövlətin gəncləri olaraq bütün fəaliyyətlərimizdə uğurlar əldə etməli, çalışıb xalqımızın, Vətənimizin adını uca tutmalıyıq. İnanıram ki, qazandığımız əbədi zəfərlə şöhlənən vüqarımız hər bir vətənsevər gəncin qəlbində daim yaşayacaq və yaşadılacaq.

Növbəti həmsöhbətimiz ***Məhərrəm Həsənov*** da təlimə böyük həvəslə qatılan fəal gənclərimizdəndir. Müsahibim deyir ki, təlim çərçivəsində bizlər üçün “Bayraktar TB2” pilotsuz uçuş aparatının nümayiş etdirilməsi məndə çox böyük marağa səbəb oldu. Bilirik ki, İkinci Qarabağ müharibəsində əzəli-əbədi dostumuz olan qardaş Türkiyənin dəyanətli siyasəti və sarsılmaz təməllər üzərində qurulmuş tərəfdaşlıq əlaqələrinin rolu danılmazdır. Bu mənada, şanlı tarixin şahid olduğu bu iki dövlətin keçdiyi yolu göz önünə gətirərək deyə bilərik ki, dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksəksəviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Dəfələrlə qardaş Türkiyə Respublikasına səfər etmiş bir gənc kimi şahid olduğum hadisələrə söykənərək deyə bilərəm ki, xalqlarımızın eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli, kədərli günlərdə də biri digərinin yanında olub. Tam əminliklə deyə bilərik ki, Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər bu gün daha yüksək səviyyəyə çatmaqdadır. Düşünürəm ki, uçuş aparatının nümayiş etdirilməsində və bu texnikanın müharibədə ordumuzun gücünə güc qatmasındakı rolu haqqında məlumat mənimlə yanaşı, digər təlim iştirakçılarının da marağına səbəb olmuşdu. Bir əsas məqamı da diqqətə çatdırım ki, gənclərdə milli-vətənpərvərlik məfkurəsinin formalaşması üçün təşkil olunan belə təlimlər, həqiqətən, biz gənclərə göstərilən diqqətin bariz nümunəsidir. Vətən müharibəsi iştirakçıları ilə görüşümüzdə bir şeyi daha anladım ki, qeyrətli, şücaətli igidlərimizin mənalı həyat yolu bizlərə örnək olmaqla bərabər, həm də, hər bir gəncin vətənpərvərlik şüarı, həyat amalı olmalıdır ki, dövlətimiz daim bizimlə fəxr etsin. Mən inanıram ki, dövlətimizin bu yolda atdığı uğurlu addımlar gələcəkdəki uğurlarımızda, bir xalq kimi qazandığımız nailiyyətlərimizdə bunu bir daha sübut edəcək.

“Vətən müharibəsində qazandığımız tarixi qələbənin qəlbimizdə yaratdığı xoş təəssüratlar bizə sanki güc verib”, – deyən həmsöhbətimiz ***Nuray İsmayılova*** qeyd edir ki, burada olduğumuz müddətdə böyük həvəslə təlimlərdə həm öyrənir, həm də səmərəli, bir o qədər də maraqlı vaxt keçiririk. Sözsüz ki, müharibə şəraitində, bədnam düşmənlə daim üz-üzə yaşayan bir xalq üçün gənclərin hərb sənətinin sirlərinə bələd olması vacibdir. Bu mənada, dövlətimizin biz gənclərə göstərdiyi diqqətin əsasında məhz bu sahənin sirlərini hər bir gəncin mütəşşəkil formada, gözəl şəkildə qavraması dayanmaqdadır. Burada keçirilən təlimlər nəticəsində hərbi sıra düzülüşlərindən tutmuş silah-sursatla düzgün davranış vərdişlərini həmçinin silahların təhlükəsizlik qaydalarını öyrənirik. Vaxtımız çox maraqlı keçir. Təlim çərçivəsində yurdumuzun bir çox gəzib-görməli yerlərinə ekskursiyalar da təşkil edilir. Bu gün də biz Batabatda, Şahbuz Dövlət Təbiət Qoruğunda olduq. Yolboyu gördüyümüz, şahid olduğumuz mənzərələr insanda xoş təəssüratlar oyadır. Müasirtipli, yeni və dəbdəbəli görkəmə qovuşan kəndlərimizin içərisindən keçərək hamar, təmirli yollar bizi tez bir zamanda mənzilbaşına çatdırdı. Ön xətdə xidmət edən hərbi qulluqçular üçün yaradılmış müasir şərait, əsgərlərimizin iradə və əzmi bir daha əminlik yaradır ki, Vətənimiz etibarlı şəkildə müdafiə olunur. Yolboyu bir daha şahid oldum ki, ailə böyüklərimdən eşitdiyim və bir zamanlar mənə nağıl təəssüratı bağışlayan 90-cı illərin böhranlı dövrləri artıq geridə qalıb. Yurdumuzun hər guşəsi günü-gündən gülüstana çevrilərək yeni və gözəl simalara qovuşur. Belə gözəl bir məkanda olmaq, onun ağuşunda nə isə öyrənib, əldə etmək bizi heç vaxt yormaz, usandırmaz. Ümid edirəm ki, bundan sonra da təşkil olunacaq bu cür təlimlərdə iştirak etmək şansını əldə edərək, fəal bir gənc kimi öz iradəmi, qabiliyyətimi nümayiş etdirəcəm.

**✍ Məcid RƏŞADƏTOĞLU**

## Torpaqlardan səmərəli istifadəyə nəzarət gücləndirilib

***Muxtar respublikada torpaqlardan istifadə və onların mühafizəsi, mülkiyyət hüquqlarının qeydiyyatı istiqamətində işlər Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən avqust ayında da uğurla icra edilmişdir.***

“2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”na müvafiq olaraq Culfa rayonu ərazisində 174 hektar meyvə bağı, 117 hektar meşə zolağı, Şahbuz rayonu ərazisində 163,58 hektar meyvə bağı və 33,56 hektar meşə zolağı plana alınaraq xəritələşdirilmişdir.

“2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı” və “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı”na uyğun olaraq Culfa rayonunun Əbrəqunus və Naxçıvan şəhərinin Tumbul kəndlərində torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçilərinin, ailə təsərrüfatı başçılarının iştirakı ilə maarifləndirici tədbirlər keçirilmişdir.

Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Şərur rayonunun Muğancıq-Müslüm, Muğancıq-Mehrab, Kosacan kəndlərinin və Kəngərli rayonunun Çalxanqala kəndinin ərazisində aparılan monitorinqlər zamanı müəyyən edilmiş qanun pozuntularının aradan qaldırılması istiqamətində işlər davam etdirilmişdir. Şərur rayonunun İbadulla və Qışlaqabbas kəndlərinin ərazisində monitorinqlərə başlanmışdır.

Ötən ay 722 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınmış, 499 texniki sənəd hazırlanmış, 97 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmış, yeni yaranmış 32 daşınmaz əmlak obyektinə ünvan verilmişdir. Naxçıvan şəhərinin 11 nəqliyyat infrastrukturu obyektində ünvan lövhələri və giriş nömrə nişanlarının quraşdırılması işləri yekunlaşdırılmışdır.

Səyyar xidmət vasitəsilə 8 yaşayış məntəqəsində vətəndaşların müraciətinə baxılmış, 1 ailə təsərrüfatına məxsus qeyri-yaşayış obyekti, 6 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilmiş, təsərrüfat fəaliyyəti ilə əlaqədar 8 ailə təsərrüfatının icarəsinə verilmiş torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınmışdır.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Aşıq Ələsgər – 200

# Dədə Ələsgər və haqq aşığı obrazı

*Azərbaycan aşıq yaradıcılığının ən azı ulu ozan Dədə Qorquda qədər gedib çıxan zəngin bir tarixi vardır. Bu tarixi mərhələdə günümüzə qədər inkişaf edərək varlığını qoruyan və davam etdirən aşıq sənətinin görkəmli nümayəndələrindən biri də bu il 200 illik yubileyini qeyd etdiyimiz Aşıq Ələsgərdir. Bildiyimiz kimi, bu barədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci il 18 fevral tarixdə "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalayıb. Dövlət sənədində də deyildiyi kimi "...çoxəsrlik keçmişə malik aşıq sənəti ənənələrinə ən yüksək bədii-estetik meyarlarla yeni məzmun qazandırmış, xalq ruhu ilə həmahəng əsərləri ilə Azərbaycan mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş etmiş" Aşıq Ələsgər bir çox tədqiqatçılar tərəfindən, sadəcə, gözəllik nəğməkarı, bəziləri tərəfindən isə, sözün həqiqi mənasında, haqq aşığı kimi səciyyələndirilmişdir. Fenomenal istedad sahibi olan aşıq haqqında söylənən bu fikir onun yaradıcı şəxsiyyəti haqqında dolğun təsəvvür yaradır: "Özündən əvvəlki ustad aşıqların ədəbi-bədii irsini dərindən-dərinə mənimsəyən Aşıq Ələsgər bu sahədə elə bir səviyyəyə yüksəlmişdir ki, istər sələfləri, istərsə də xələfləri haradan baxsalar onu görürlər".*

Aşıq Dədə Ələsgər kimi daha çox xatırlanır. Onun bütöv obrazının açılmasında "Dədə" titulu, sadəcə, qohumluq dərəcəsi bildirən, bəzi dialektlərdəki "baba" sözünün ekvivalenti kimi ortaya çıxsa da, sonradan bu titul irfan-sufi düşüncəsinin ali mərtəbəsi olaraq layiqli müraciət kimi özünü doğrultmuşdur.



Aşıq Ələsgər mərifəti ailəsindən, Göyçə mühitindən, yanında işlədiyi, onu nökər yox, oğlu kimi görən Kərbəlayı Qurbandan, sazı isə Göyçə havasından, doğulduğu yerin suyundan, dağından, otundan, gül-çiçəyindən, Səhnəbanuya olan eşqindən, ən kamil şəkildə isə ustadı Aşıq Alıdan öyrənmişdi. Şəyirdlikdən ustadlığa qədər yol qət etsə də, qətiyyən lovğalanmamış, əksinə, təvazökar kimliyini qoruyub saxlamışdır. "Dünyada" divanisində dediyi kimi:

*"Şəyirdlikdə can çürütdüm,*
*Hərgiz ustad olmadım",*

yaxud da, "Düşərsən" rədifli hərbə-zorbada qarşısındakına dediyində bunu görürük:

*Məğrurluq eyləyib ustadam demə,*
*Vaxt olar, bir yerdə dara düşərsən.*

Ustadlıq məsələsinə də qayıdacağıq. İlk olaraq aşıqlıq tərəfinə nəzər salmaq lazım gəlir. Bir az da əvvələ gedib "Aşıq" sözünə parçimlənir düşüncələr. "Aşiq-eşq", "aşiq-işıq", "şıq-aşı" və bu kimi sözlər özlüyündə yan-yana düzülür. Hansı tərəfdən baxsan, hər birində Aşıq Ələsgər obrazını görə bilirsən. Aşıq yaradıcılığı ilə bağlı çoxsaylı tədqiqatlar aparmış Qara Namazovun bu mövzuda fikirləri maraqlıdır: "Aşıq" sözü türkdilli xalqların işıq sözündəndir. V.Çələbi "eşq" və "aşiq" sözlərinin türkcə "işıq" sözündən əmələ gəldiyini xatırlatmaqla bərabər, aşığı "ürəyi eşq ilə yanan, qəlbi məhəbbətlə nurlanan kimsə" adlandırmışdır. F.Köprülü də aşıq sözünün türk dillərində işlənən "işıq" sözündən olduğunu söyləyir və belə hesab edir ki, "işıq", "nur", "haqq", "haqq aşiqi" orta əsr təriqətlərinin rəmzi mənası və əqidəsidir.

Yuxarıdakı fikirlərdə hansı sözə tərəf yönəlsək, Aşıq Ələsgəri görə biləcəyik. Türkdilli xalqların "işıq" sözü – işıqlı Ələsgər, aşiq – istər yurduna, yuvasına, sazına, sözünə aşiq Ələsgər, istərsə də Səhnəbanu ilə başlayan aşiq Ələsgər, aşılamaq – söyləmək, təlqin etmək, fikrini çatdırmaq – davamlı məclislərdə söz söyləyən, eşitdiklərini xalqa təlqin edən, xalqın arzu və istəklərini sazın telləri ilə avazlandırıb başqalarına çatdıran, aşılayan Ələsgər, istərsə də onu görənlərin haqqında danışdıqları kimi boy-buxunlu, görkəmli, şıq Ələsgər və digər təyinlər Aşıq Ələsgərin boyuna biçilib sanki. Bəlkə, elə ona görə Mürsəl Həkimov aşıq sənəti ilə bağlı danışarkən bu qənaətə gəlir ki, "heç bir sənət öz ölməzliyini, başəriliyini atalar sözü və zərb-məsəllərdə bu qədər müdrikliklə təsdiqləməmişdir: "Aşığınkı hayla, mollanınkı vayla", "Aşıqdan qonaq olmaz", "Aşığa hər yer məhrəmdir", "Aşıq özümüzünküdür", "Aşıq gördüyünü çağırar", "Sazı Pir baba, sözü Nur baba", "Aşığın sazını aldın, ya canını", "Ustadı tökəni şəyirdi döşürər", "Aşıq ilqarlı olar, gözəl idbarlı", "Aşıq dəm gətirər, molla qəm", "Aşıq el anasıdır" və sair.

Bu fikirlərə dayanaraq M.Həkimov aşıqları iki yerə ayıran qənaətini dilə gətirir: "Aşıqları sənətkarlıq, istedad və yaradıcılıq nöqteyinəzərindən iki qrupa bölmək olar: birinci qrup aşıqlar dolğun məzmunlu əsərləri, gözəl saz havaları, şirin ləfzləri və hazırcavablığı ilə xalqın rəğbətini qazanmış yaradıcı ustad aşıqlardır, dədələrdir. İkinci qrup aşıqlar isə ustad aşıqların yaratdığı poeziyanı, dastanı, həmçinin yazılı ədəbiyyat nümunələrini xalq şənliklərində, mərasimlərində məlahətli səsləri ilə tamaşaçılara, dinləyicilərə çatdıran peşəkar – ifaçı aşıqlardır". Elə buradaca əmin şəkildə ifadə etmək olar ki, Aşıq Ələsgər bu bölgünün birinci qrupuna daxil olan yaradıcı ustad aşıq, dədədir. "Peyğəmbərin meracı"nda Aşıq Ələsgərin sözləri də bunu təsdiq edir:

*Şairin sinəsi haqq bazarıdır,*
*Satdığı kəlmələr ləl-mirvarıdı.*

*Alimin elmiylə helmi yarıdı,*
*Həcvü-hədyan demək nahaq söhbətdi.*

*Yazıq Ələsgərəm, azdı kamalım,*
*Vacibdir ki, bir ustaddan dərs alım.*
*Dərs aldım, öyrəndim, oldu öz malım,*
*Bizdən də ustada nəfi – rəhmətdi.*

Yuxarıda "dədə" mövzusuna təkrar qayıdacağımızı bildirmişdik. Əvvəlcə "dədə" yozumunun izahı barədə söylənilən fikirlərə diqqət edək. Qara Namazov yazır: "Dədə" sözü ulu ata, böyük ata mənası daşımışdır və indi də ata mənasında işlənməkdədir. Dədə həm də ən hörmətli və nüfuzlu sənətkarlara verilən fəxri titul olmuşdur". Digər folklorşünas alim Paşa Əfəndiyev də məsələyə oxşar prizmadan yanaşır: "Xalq içərisində böyük hörmətə malik olan ozanlar əlində qopuz el-el gəzər, çalar, oxuyar, igidlərə dastanlar qoşardı. Dədə isə ozanlığı ilə bərabər, həm də müdrik, bilici, müşkül işləri yoluna qoyan bir el ağsaqqalı olmuşdur. Başqa sözlə, əgər ozanlar ən çox qopuzla çalıb-oxuma, ifa ilə bağlı idilərsə, dədələr həm də yaradan sənətkarlar, məşhur oğuznamələrin əsl yaradıcıları olmuşlar". Professor Hüseyn İsmayılov isə həm "dədə"lik, həm də Aşıq Ələsgər – Dədə Ələsgər paralelliyində qətiyyətli mövqe ortaya qoyur: "Türk dünyasının Oğuz mədəni arealında, türk coğrafiyasının məkan əcdadı Göyçədən qopan sazın və sözün sehrində sintezləşən və Tanrı dərgahına doğru ucalan musiqinin, səsin, sözün və dünyanı estetik biçimdə dərk və ifadə edən fikrin ən möhtəşəm daşıyıcısı Aşıq Ələsgərin adının önündə işlənə biləcək epitetlərin ən uğurlusu Dədədir. Zaman anoxronizmini nəzərə almasaq, orta çağ Oğuzu Ələsgərin adına kitab bağlasaydı, hökmən "Dədə Ələsgərin kitabı" yazardı; eynilə "Kitabi-Dədə Qorqud" kimi. Xüsusi kültür vahidinin işarəsi kimi "dədə" sözünün semantik məzmununa bələd olmadan kökləri və qaynaqları təsəvvüfdən və ürfan fəlsəfəsindən gələn Ələsgər poeziyasının və Ələsgər fenomeninin sehr və möcüzə pərdəsini qaldırmaq mümkün deyil". H.İsmayılov aşığı sufiliklə içə görür: "Dədə" Aşıq Ələsgərin mənsub olduğu ali sufi mərtəbənin göstəricisidir. Bu, haqq aşiqliyinin zirvə məqamıdır. Ələsgərlə bağlı çoxsaylı araşdırmalar onu şəxsiyyət kimi, ustad sənətkar kimi, gözəl şair kimi təqdim edir. Bunlar doğrudur, amma Ələsgər kimi fenomenin müəyyənləşdirilməsi üçün kifayət deyildir. Poeziyasından göründüyü kimi Ələsgər Haqq Aşığıdır, Sufi Mürşididir, Övliyadır, Dədədir".

"Əhli-irfan məclisində yükü gövhərmisal olan" və "Sözünün bir parasını xəlvətdə saxlayan" aşığın özü də alimin sufi mürşidi, övliya təyinlərinə yaradıcılığı ilə dəstək olur. Əgər Aşıq Ələsgər "Olmuşam" qoşmasında:

*Ələstü bürəbbüküm qalu-bəladan*
*Mərdin mövlasına nökər olmuşam.*
*Sürtmüşəm üzümü xaki-payına,*
*Elm tapıb sinədəftər olmuşam,*

yazırsa, "Varıymış" qoşmasında sufi-mürşid, övliya xarakterlərini nişan verir:

*Haqq sözə gərəkdi, düz qiymət olsun,*
*Qiyməti verməyə mərifət olsun.*
*İnsanda insanlıq, səxavət olsun,*
*Neylərəm ki, cah-cəlalı varıymış.*

Haqq aşığı olmağın təsdiqi həm də o deməkdir ki, aşıq vergilidir. Yəni ona ilahi vergi verilmiş, folklor mətnlərinin dili ilə desək, badə içilmiş, buta verilmişdir. Bunu təsdiq edən məqamlar həm Dədə Ələsgərin şeirlərində özünü göstərirdi, həm bədahətən şeir qoşmasında üzə çıxırdı, həm də aşığın həyatının ayrı-ayrı məqamlarında öncəgörücülüyü bunu deməyə əsas verirdi. Aşıqla bağlı xatirələr, bu mənada, qeyd olunmalıdır. Belə xatirələrdən yola çıxaraq yaradılmış dastanlarda da Dədə Ələsgərin bu istedadı qabaqlamasını müşahidə edirik. "Aşıq Ələsgərlə Şəmkirli Aşıq Hüseynin görüşü" adlı dastan, bu mənada, daha xarakterikdir. Həmin dastanda bir maraqlı məqam var. Aşıq Hüseyn Şəmkirli hansı qafiyədə şeir oxuyursa, Aşıq Ələsgər "mənim də o qafiyədə şeirim var", – deyib oxuyur. Bu da qonağın diqqətini cəlb edir. Hiss edir ki, Aşıq Ələsgərin, əslində, elə qafiyədə şeiri yoxdur, sadəcə, ilahi vergi sayəsində məclisdəcə elə bir şeir qoşur və saz çalıb-oxuyur. Bunun nəticəsində də görüşdən qayıdanda Ağbulaq kəndində onu gözləyən camaatın Aşıq Ələsgəri soruşması üzərinə Şəmkirli Aşıq Hüseyn deyir ki, "Aşıq Ələsgər kimi aşıq hələ dünyaya gəlməyib, o haqq aşığıdır".

Bundan əlavə, qardaşı oğlu Aşıq Nəcəfin xatirələrində göstərilir ki, Aşıq Ələsgər ölümünü belə, hiss edib. Bu zaman xəbər göndərib oğlu Başiri yanına çağırtdırır və ehtiyatınızı görün, mən ölürəm, – deyib. Sapsağlam birinin belə deməsi oradakılara qəribə gəlsə də, Aşıq Ələsgər "Öləcəyimi bilməsəm bu sözü deməzdim", sözləriylə oğluna ehtiyat görməyə başlamasını tapşırır. Nəticədə, dediyi kimi də olur.

Bu öncəgörməni, ilahi vergini, bir çox mətləblərdən xəbərdar olmasını Aşıq Ələsgər şeirlərində də dilə gətirmişdir. Çoxları, bəlkə də, aşığın şeirin qafiyəsinə uyğun sözgəlişi misra kimi düşündükləri halda, belə bir yüksək mövqeyə sahib olan aşıq nə dediyini mütləq ki, bilirdi. Yaradana ünvanlı olaraq söylənən "Ələsgər qəlbinə saldın işığı" fikrində də İlahinin aşığın qəlbinə nur-işıq verdiyini anlamaq olar. Yaxud da "Ələsgərəm, hər elmdən halıyam" "Əlif"dən dərs aldım, əbcəd oxudum", "Mövladan dərs alan heç düşməz ləngə" misralarının məna yükü Aşıq Ələsgərin açıq bəyanları kimi diqqət çəkməyə bilməz. Eyni zamanda "Ay nədən oldu?" bağlamasındakı tapşırma bəndi, bu mənada, bir çox sualın cavabı olmaqla yanaşı, bir çox cavabın da sualı mahiyyətindədir:

*"Yazıq Ələsgərəm, intizarım var,*
*Alimsənsə, məni eylə xəbərdar:*
*Elmi hardan tapdı cümlə aşıqlar?*
*Şeiri-müəmması ay nədən oldu?".*

Haqq aşığı olmasını "Danışaq" bağlamasında da bəyan edir:

*"Əgər haqq aşıqsan, "meydana gəl" de!*
*Arifsənsə, bu sözlərə "gözəl" de!*
*Farsiyyət bilirsən, şeiri-qəzəl de!*
*Ərəbxansan, gəl, Qurandan danışaq".*

Aşıq Ələsgərin Həcər xanımla deyişməsində də iki misra cəlbedicidir:

*Ələsgər də hər elmdən halıdı,*
*Mövla baratıdı, öz kamalıdı.*

Ələsgərin hər elmdən halı – agah olması mənа olaraq aydındır. "Mövla baratı" ifadəsi isə maraqlı kodların gizləndiyi fikir kimi izah tələb edir. "Barat" sözünün bir neçə mənası var. Göndərilən hər hansı bir şey (burada Aşıq Ələsgəri Mövlanın göndərdiyi kimi anlaya bilərik), səlahiyyətli (Mövlanın səlahiyyətli şəxsi olması), yaradıcı (bu ifadəyə artıq əlavə izaha gərək yoxdur), şanslı, uğurlu (aşıq sənəti sahəsindəki uğurlarını düşünə bilərik). Mövla baratı və öz kamalı. Təbii ki, Allahın göndərdiyi səlahiyyətli, uğurlu, yaradıcı şəxs həm də öz kamalı, ağlı, iradəsi ilə hər elmdən halı olandır və beləcə, haqq aşığıdır.

İlahi vergili haqq aşığı olması barədə daha bir xatirəni yenə də aşığın qardaşı oğlu Aşıq Nəcəfdən dinləyək: "Düzdür, biz də yazırıq, amma elə olur ki, dörd misra yazanda, bəzən ikisi xoşumuza gəlmir, pozub özgə misra yazırıq. İndiki şairlər nə yazsa, elmin gücünə yazır. Bizim şairlərimizin yazdıqları yerin dərin qatlarından çıxarılmış artezian suyuna, yazı-pozu bilməyən Ələsgərin şeirləri isə o dağların sinəsindən təbii qaydada axıb gələn bulaqlara bənzəyir. Mən onun belə qoşmalarının bədahətən yaradıldığına şübhə etmirəm. Onunku haqq vergisidir".

Aşıq Ələsgərin haqq aşığı obrazının maraqlı tərəflərindən biri də el-obada, ayrı-ayrı bölgələrdə hörmət-izzət sahibi olması idi. Onu tanımayanlar belə, sözlərindəki mənaya vurğun olur, sadə xalq danışığı ilə sirli mənalar yaratması qarşısında heyrətlərini sevgiləri ilə ifadə edirdilər. Bunun bir səbəbi də aşıq sənətinin xalq həyatı ilə bağlı olmasında gizli idi. Təbii ki, "aşıqlar öz "təhsilini" xalqdan almış, onların "məktəbi" xalqın həyatı olmuşdur". Məhz xalqdan təhsil alan, məhəbbəti xalq həyatı olan Dədə Ələsgər ustad aşıq obrazının portretini "Gərəkdi" rədifli qoşmasında belə göstərirdi:

*Aşıq olub, diyar-diyar gəzənin,*
*Əvvəl, başda pür kamalı gərəkdi.*
*Oturub-durmaqda ədəbin bilə,*
*Mərifət elmində dolu gərəkdi.*

*Xalqa həqiqətdən mətləb qandıra,*
*Şeytanı öldürə, nəfsin yandıra,*
*El içində pak otura, pak dura,*
*Dalısınca xoş sədalı gərəkdi.*

*Ələsgər haqq sözün isbatın verə,*
*Əməlin mələklər yaza dəftərə.*
*Hər yanı istəsə, baxanda görə,*
*Təriqətdə bu sevdalı gərəkdi.*

Bu qoşmadan yola çıxan tədqiqatçı Qara Namazov Ələsgərin görmək istədiyi aşığı belə səciyyələndirir: "Ələsgər xalqın qəlbinə yol tapa bilən sənətkar olmaq üçün aşıqların qarşısında çox məsuliyyətli vəzifələr qoyurdu. O, aşıq sənətini kamil bilməklə yanaşı, sənətkarın ağıl, kamal, mərifət sahibi olmasını vacib hesab edir və göstərirdi ki, əsil aşıq yüksək insani keyfiyyətlərə malik olmalı, həyat həqiqətləri ilə xalqın gözünü açmalı, təmiz və pak adı ilə elin böyük hörmət və nüfuzunu qazanmalıdır... Xalq müəllimi olan aşıq danışdığı sözün qiymətini bilməli, həmişə mənalı danışmalı, ağzından "ləli-gövhər" kimi söz əsilməli, adi bir eyhamı, deyilən hər biri sözü tez anlamalı, sözü ilə işi bir olmalıdır". Dədə Ələsgər ustad aşıq olduqdan sonra şəyirdlərinə də kamil bir saz-söz adamı olmağın yollarını göstərərkən elmli, bilikli, məlumatlı olmağı əsas sayırdı.

Aşıq Ələsgər timsalında haqq aşığı obrazını nəzərdən keçirərkən aşığın misraları da köməyə çatır: "Ələsgərəm, doğru yoldan azmaram", "Mən aşığam, yasaq yoxdu dilimə", "Mənim sözüm yoldan çıxan mollanı, inşallah, qaytarar, müsəlman eylər" kimi misralarla yanaşı, ayrı-ayrı şeirlərindəki fikirlər də diqqətçəkəndir. Bu kimi fikirlər haqqında ətraflı düşündükcə Dədə Ələsgərin nəvəsi İslam Ələsgərin söylədikləri ilə birbəbir razılaşmalı olursan: Aşıq Ələsgər elə bir qüdrətli söz sənətkarıdır ki, onun dönə-dönə eşitdiyimiz, hətta əzbər bildiyimiz bəndlərinə fikir verəndə orada ağlımıza gəlməyən daha yeni, daha maraqlı estetik və didaktik məzmunlu, bəzən də dərin fəlsəfi məna daşıyan bədii ifadələr tapırıq. Aşığın yaradıcılığında üzə çıxan belə keyfiyyətlər onu bizə daha da yaxınlaşdırır".

Aşıq şeirinin, bizim fikrimizcə, ustalıq göstəricilərindən biri də dodaqdəyməz təcnislər, dodaqdəyməz divanilər, müstəzad təcnislər, həttа hərbə-zorbalardır. Bu zaman nə qədər təvazökar olursan-ol, şeir şəklinin tələbinə uyğun olaraq qarşındakına üstünlük gəlmək istəyi ilə hərbə-zorba söyləməli, xalqın dili ilə ifadə etsək, özündən deməli, boy göstərməlisən. Amma bu zaman dilinə görə dilçəyinin də olması şərtdir.

Təkcə nümunə gətirdiyimiz sözlərindən yola çıxaraq xalqımızın Ələsgər kimi bir ustad yetirdiyi ilə qürur duymalı olursan. Bu xalqın nümayəndəsi kimi Ələsgərlə eyni xalqdan, eyni millətdən, eyni kökdən, eyni coğrafiyadan olmağın fəxrini hiss edirsən. Bu qürur, bu fəxr özlüyündə belə bir fikir formalaşdırır ki, heç bir təhsili olmamasına baxmayaraq, Ələsgər "el məktəb"inin ən istedadlı şagirdi, "xalq universiteti"nin ən əlaçı məzunudur.

Nizamilər, Nəsimilər Füzulilər, Xətailər, Vaqiflər yetirən xalqın Qurbani, Tufarqanlı, Aşıq Alı məktəbi Aşıq Ələsgərlə ən böyük zirvəsini fəth edib. Elə bunun nəticəsidir ki, professor Kamil Vəliyev "Füzulidən görünən Ələsgər – Ələsgərdən görünən Füzuli qədərdir, o qədər də ucalıqdadır. Sözündə Füzuli təcrübəsi olmayan xalq çətin ki, Ələsgər kimi ustadı yarada bilərdi" qənaətinə gəlir.

*Aşıq Ələsgərin şeirlərindən, həyatından, haqqında deyilən xatirələrdən, yaradılan dastanlardan, istərsə də Aşıq Ələsgər haqqında aparılmış araşdırmalardan onun irfan yüklü Dədə aşıq, elm yüklü ustad aşıq, xalq ruhlu el ağsaqqalı obrazını görmək çətin deyil. Bütün bunların hamısını ümumiləşdirəndə Ələsgərdə "dədə" və "haqq" sözlərinin sintezindən dədə ruhlu haqq aşığı, haqq aşiqli dədə aşıq obrazı gözlərimiz qarşısında canlanır. Aşıq Ələsgər obrazında xalqın folkloru, etnoqrafiyası, məişəti, sazı, sözü, inamı, inancı, tarixi keçmişi, yaradıcı potensialı cəmlənmişdir. Haqqında nə qədər yazılmasına, araşdırmalar aparılmasına, tədqiqatlar ortaya qoyulmasına baxmayaraq, bundan sonrakı mərhələdə də Aşıq Ələsgər təkrar-təkrar, yeni baxışlar, yeni istiqamətlər işığında öyrənilməli, yaradıcılığı və şəxsiyyəti haqqında araşdırmalar davam etdirilməlidir. Heç şübhəsiz ki, folklorşünaslarımız, ədəbiyyatşünaslarımız ölkə başçısının ustad aşığın 200 illiyinin dövlət səviyyəsində qeyd olunması ilə bağlı imzaladığı tarixi Sərəncamın bu sahədə açdığı elmi üfüqlərdən layiqincə bəhrələnəcəklər.*

**Elxan YURDOĞLU**
***AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Folklorşünaslıq şöbəsinin müdiri, dosent***

## Ötən ay muxtar respublika muzeylərinə 527 yeni eksponat təqdim edilmişdir



***Avqust ayının əvvəlindən başlayaraq muxtar respublikada mədəniyyətin təbliği və sakinlərin mədəni istirahətinin təşkili məqsədilə müxtəlif məzmunlu tədbirlər keçirilmişdir. Azərbaycan Kinosu Günü ilə bağlı Naxçıvan şəhərindəki “Əyləncə adası” İstirahət Parkında “O olmasın, bu olsun” filmi nümayiş olunmuşdur. Həmçinin açıq havada kino nümayişləri avqust ayında da davam etdirilmiş, “Əyləncə adası” İstirahət Parkında 9 film kinosevərlərə təqdim olunmuşdur.***

Ay ərzində “Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunması və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”nın icrası ilə bağlı yaradılmış “Əllə toxunmuş xalçaların reyestri sistemi”nə daxil edilməsi üçün 3 yeni xalçanın pasportlaşdırılması istiqamətində müvafiq iş aparılmışdır. Həmçinin bu sistemə daxil olan 14 sayda xalça haqqında məlumat “naxcivan_muzeyleri” “Instagram” səhifəsində, Naxçıvan Dövlət Xalça Muzeyinin sosial şəbəkə hesablarında paylaşılmışdır.

2021-ci ilin “Nizami Gəncəvi ili” elan edilməsi ilə bağlı ötən ay Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş 3 tədbir keçirilmişdir. Hesabat dövründə muxtar diyarımızda fəaliyyət göstərən muzeyləri 44 min 507 yerli, 7 min 671 əcnəbi olmaqla, ümumilikdə, 52 min 178 tamaşaçı ziyarət etmiş, bu muzeylərə 527 yeni eksponat daxil olmuşdur. Ay ərzində, ümumilikdə, muxtar respublikanın muzeyləri tərəfindən 680-dən çox müxtəlif məlumat xarakterli material, videoçarx hazırlanmış və sosial şəbəkələrdə paylaşılmışdır.

Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika və Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq kitabxanaları tərəfindən “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil olan kitabların 3-ü onlayn olmaqla, bir neçəsinin ənənəvi müzakirəsi təşkil olunmuşdur. Həmçinin ədəbi şəxsiyyətlərin yubileyləri, eləcə də əlamətdar və tarixi günlərlə bağlı 1-i onlayn olmaqla, 22 tədbir keçirilmiş, 40 sərgi tamaşaçıların ixtiyarına verilmişdir. Ötən ay Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının təşəbbüsü ilə keçirilən “Kitabı sevin – kitab bilik mənbəyidir” adlı sərgi maraqla qarşılanmışdır. Kitabxanalar tərəfindən 21 sağlamlıq imkanları məhdud uşağa səyyar kitabxana xidməti göstərilmişdir.

Ötən ay muxtar respublikanın kitabxanalarının sosial şəbəkə hesablarında tarixi və əlamətdar günlər, görkəmli mədəniyyət və incəsənət xadimlərinin yubileyləri ilə əlaqədar 128 paylaşım edilmişdir. Ay ərzində muxtar respublikanın kitabxanalarına 463 yeni oxucu müraciət etmiş, oxucu gəlişi 8 min 705, kitab verilişi isə 42 min 521 nüsxə olmuşdur. Bundan başqa, ötən ay elektron kataloqa 701 adda kitab işlənərək elektron kataloqdakı kitabların sayı 26 min 296-ya çatdırılmışdır. 30 kitab şəbəkəyə işlənmiş və bu qəbildən kitabların sayı 3 min 491-ə çatdırılmışdır. Ay ərzində elektron kitabxanadan, ümumilikdə, 518 oxucu istifadə etmişdir.

Naxçıvan Dövlət Film Fondu tərəfindən görkəmli kino xadimləri, dünya və Azərbaycan kinosunun inciləri haqqında film çəkilişlərindən maraqlı faktlarla bağlı məlumatların sosial şəbəkələrdə paylaşılması avqust ayında da davam etdirilmiş, “Xalq yaradıcılığı günü” çərçivəsində xalq yaradıcılığı nümunələrinin videoçəkilişi aparılmışdır.

Ötən aydan etibarən M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı və Naxçıvan Dövlət Uşaq Teatrı Nizami Gəncəvinin müvafiq olaraq “Yeddi gözəl”, “Sirlər xəzinəsi” əsərlərindəki hekayələr əsasında səhnələşdirilən tamaşaların məşqlərinə başlamışdır. Kukla Teatrının aktyorları Ağbulaq İstirahət Mərkəzində şəhid övladlarının iştirakı ilə təşkil olunan Zəfər düşərgəsində tamaşalardan parçalar, teatrda isə xüsusi kateqoriyadan olan uşaqlar üçün “Ağca və Bozca” tamaşasını nümayiş etdirmişlər.

Türkiyənin Zəfər bayramına həsr olunmuş tədbirlərdə Naxçıvan Dövlət Filarmoniyasının solistləri iştirak etmişlər.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Gənclərin asudə vaxtının səmərəli təşkili diqqət mərkəzindədir



*Ötən ay gənc nəslin vətənpərvər ruhda formalaşdırılması, intellektual bilik və dünyagörüşünün artırılması, asudə vaxtının səmərəli təşkili, muxtar respublikamızın turizm imkanlarının onlar arasında tanıdılması və təbliği məqsədilə bir sıra tədbirlər həyata keçirilib.*

İyul-avqust aylarında Ağbulaq İstirahət Mərkəzində təşkil olunan 3 günlük “Yay məktəb”lərində iştirakçılar üçün STEAM və “Gələcək üçün maliyyə” təlimləri, konsert proqramı, müxtəlif idman oyunları, müsabiqələr, intellektual yarışlar təşkil olunub və sənədli filmlər nümayiş etdirilib. 4 dəfə reallaşan düşərgə tipli layihədə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, könüllü gənclər və kursantlar olmaqla, ümumilikdə, 200-dən çox gəncin iştirakı təmin olunub. Beynəlxalq Gənclər Günü ilə bağlı hazırlanan tədbirlər planına uyğun olaraq Naxçıvan şəhərində gənclərin Vətən müharibəsində iştirak edən hərbçilərimizlə, həmçinin Culfa rayonunda şəhid ailələri ilə görüşləri təşkil edilib, şəhid məzarları ziyarət olunub. Bu münasibətlə paytaxt və bölgələrdə müxtəlif idman yarışları, film nümayişləri keçirilib, Ağbulaq kəndi ətrafında təmizlik aksiyası, Ordubad və Naxçıvandakı mədəni-tarixi abidələrə ekskursiyalar reallaşıb.

Sağlamlıq imkanları məhdud yeniyetmələrin intellektual səviyyəsi, dünyagörüşü və zehni inkişafını stimullaşdırmaq, eləcə də asudə vaxtlarını səmərəli təşkil etmək məqsədilə “Xəmsə” milli intellekt oyunu üzrə fərdi birincilik, məktəbdənkənar tərbiyə müəssisələrinin şagirdləri arasında isə “Şəhidlər bizim qəhrəmanımızdır!” mövzusunda rəsm müsabiqəsi keçirilib.

Azərbaycanın tarixində müstəsna xidmətləri olan şəxslərin, ərazi bütövlüyümüz uğrunda şücaət göstərən döyüşçülərin, o cümlədən Milli qəhrəmanların gənclər arasında tanıdılması məqsədilə könüllü gənclər tərəfindən “Qəhrəmanlar unudulmur!” adlı videoçarxlar hazırlanıb və sosial şəbəkələrdə yerləşdirilib.

Hesabat dövrü ərzində bədən tərbiyəsi və idman sahəsində kütləviliyin artırılması, gənc nəslin sağlamlığının qorunması, yay tətilinin səmərəli təşkili və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası istiqamətində tədbirlər həyata keçirilib. “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!” devizi ilə karate və MMA, həmçinin boks, kikboksinq, cüdo üzrə Naxçıvan şəhər birincilikləri, Beynəlxalq Gənclər Günü münasibətilə qızlar arasında üzgüçülük yarışı, boccia və çimərlik voleybolu üzrə yoldaşlıq görüşləri, eləcə də gənc şahmat müəllimləri arasında şahmat üzrə respublika birinciliyi reallaşıb.

İdmançı və məşqçilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və yeni biliklərə yiyələnməsi məqsədilə təcrübəli mütəxəssislərin muxtar respublikaya dəvət olunması diqqətdə saxlanılır. Gənclərdən ibarət milli komandanın məşqçisi – beynəlxalq dərəcəli idman ustası, əməkdar məşqçi Rövşən Hacıyevin iştirakı ilə sərbəst güləşçilər üçün taktiki-texniki seminar təşkil olunub. Ötən ay idmançılarımız beynəlxalq arenada öz qüvvəsini sınayıb, uğurlu nəticələr əldə ediblər. Naxçıvan Güləş Federasiyasının yetirməsi Hacı Əliyev Tokio-2020 Yay Olimpiya Oyunlarında Azərbaycanı təmsil edərək olimpiadanı gümüş medalla tamamlayıb. Naxçıvan Karate-do Federasiyasının yetirməsi Rəşid Süleymanov Finlandiyada keçirilən 14-15 yaşlı yeniyetmələrin 48-ci Avropa çempionatında 1-ci olub. Karateçilərimiz Rafiq Hüseynli (1 qızıl, 2 gümüş və 1 bürünc), Nərgiz Həsənli (1 qızıl və 1 bürünc) və Yaqub Qəmbərovdan (1 bürünc) ibarət heyət isə Türkiyədə keçirilən 5-ci Çanaqqala Open beynəlxalq turnirində 7 medal qazanıb. Naxçıvan Şahmat Federasiyasının idmançılarından Rza Həsənov Serbiyada keçirilən beynəlxalq çempionatın 14 yaşlıları arasında ikinci olub, Nəsrin Babayeva milli komandanın üzvü kimi Rumıniyada təşkil olunan qadın şahmatçıların Avropa çempionatında iştirak edib, 16 yaşadək şahmatçılar arasında 5-ci olub.

Muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları üçün mütəmadi təşkil olunan ekskursiyalar davam etdirilib, qrafikə uyğun olaraq budəfəki gəzintidə Basketbol, Futbol, Voleybol və Atletika federasiyalarının təmsilçiləri müvafiq olaraq Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksində, Bəhruz Kəngərli Muzeyində, Cəlil Məmmədquluzadənin ev-muzeyində və Xatirə Muzeyində olublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Bu gün muxtar respublikamızda təhsil quruculuğu, təhsilin müasir tələblər səviyyəsində inkişafı sahəsində aparılan uğurlu siyasətin nəticəsidir ki, diyarımızda müasir təhsil infrastrukturu yaradılıb və bu sahədə qazanılan uğurlar ildən-ilə artır. Biz bu uğurları hər il qəbul imtahanlarında yüksək ballar toplayaraq ölkəmizin ali təhsil müəssisələrinə qəbul olunan gənclərimizin timsalında aydın görürük. Builki qəbul imtahanlarında da muxtar respublikamızda yüksək bal toplayaraq müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə qəbul olunmuş tələbələrin sayında artım müşahidə olunub. Biz də tələbə adını qazanan gənclərimizdən ikisi ilə həmsöhbət olduq :*

***Təhsil millətin gələcəyidir***

## Tələbə adınız mübarək!



***Vüsalə Fərzəliyeva*** 2003-cü ildə Naxçıvan şəhərində anadan olub. Ali məktəblərə qəbul imtahanında III qrup üzrə 622 bal toplayan Vüsalə ilə söhbət zamanı bildirdi ki, Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin məzunu olub: – Orta məktəbi əla qiymətlərlə oxumuşam və fərqlənmə attestatı ilə bitirmişəm. Naxçıvan şəhərində keçirilən Azərbaycan dili və ədəbiyyat fənni üzrə olimpiadada iştirak etmişəm, həmçinin intellektual yarışmalarda yer tutmuşam. Boş vaxtlarımda tennis oynamağı, rəsm və musiqi ilə məşğul olmağı sevirəm. Qəbul imtahanlarında yüksək nəticə göstərməyi qarşıma məqsəd qoyub, çox çalışmışam. İnanırdım ki, yüksək bal toplayacağam. Bu nəticəni göstərməyimdə müəllimlərimin də əməyi böyükdür. Onlara minnətdarlığımı bildirirəm. Artıq tələbəyəm və Naxçıvan Dövlət Universitetində Hüquqşünaslıq ixtisası üzrə təhsilimi davam etdirəcəyəm. Universitetlər haqqında məlumat toplayarkən mənə aydın oldu ki, ölkəmizin ali təhsil müəssisələri içərisində Naxçıvan Dövlət Universiteti xüsusi yer tutur. Burada gələcəyin hüquqşünaslarının muxtar respublikada fəaliyyət göstərən məhkəmələr və hüquq-mühafizə orqanlarında istehsalat təcrübəsi keçmələrinə şərait yaradılır. Bununla da təhsil alan tələbələr nəzəri və təcrübi biliklərə yiyələnir, yüksək peşə keyfiyyətlərinə malik ixtisaslı hüquqşünas kadrlar kimi yetişirlər. Ona görə də seçimim Naxçıvan Dövlət Universiteti oldu. Gələcəkdə ixtisasım üzrə təhsil alıb, peşə borcumu layiqincə yerinə yetirəcəyəm.



Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin digər bir məzunu ***Tamilla Rəhimli*** ilə həmsöhbət oluruq. O, 2004-cü ildə Bakı şəhərində anadan olub, hazırda Naxçıvan şəhərində yaşayır. Onun dedikləri: – Qəbul imtahanında III qrup üzrə 610 bal toplamışam. Oxuduğum məktəbdə uğurlarım çox olub. Məktəbi “Gümüş” nişan və xüsusi nümunəli attestat ilə bitirmişəm. Seçimim isə Azərbaycan Dillər Universitetinin İngilis dili müəllimliyi ixtisası oldu. Uşaqlıqdan bəri ingilis dilinə xüsusi maraq göstərmişəm, bu dildə yaxşı oxumuşam. Asudə vaxtımda da ingilis dili üzrə səviyyəmi inkişaf etdirməyə çalışmışam. Həmçinin düşünəndə ki, xarici dil öyrənmək müasir dövrün tələbidir, ixtisas seçimimin düzgün olduğuna inanıram. Universiteti bitirdikdən sonra xaricdə magistr təhsilimi davam etdirmək, sonra da uğurlu karyera qurmaq üçün çalışacağam.

*Hər bir təhsilli gənc parlaq gələcəyin açarıdır. Odur ki, biz də tələbə adını qazanaraq ali təhsil yoluna qədəm qoyan bütün gənclərimizi təbrik edir, onlara şirin və bir o qədər də məsuliyyətli tələbəlik illərində – işıqlı gələcəyə gedən yolda uğurlar arzulayırıq.*

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Növbəti təlim keçirilib



*Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində ikigünlük təlim keçirilib.*

Təlimin keçirilməsində məqsəd mühasibatlıq sahəsində çalışan işçilərin peşə hazırlığının təkmilləşdirilməsi və biliklərinin qiymətləndirilməsidir. Mərkəzin direktoru Mehriban İmanova peşəkar mühasib sertifikatının verilməsi qaydaları haqqında məlumat verib.

Təlimin ilk günü təlimçi Azər Məmmədov “Torpaq, tikili və avadanlıqlar” adlı Beynəlxalq Mühasibat Uçotu Standartının nəzəri əsasları modulu ətrafında kapital və gəlirlərlə bağlı məsrəflər, uzunmüddətli aktivlərin yenidən qiymətləndirilməsi və digər mövzular barədə məlumat verib.

Növbəti gün Beynəlxalq Mühasibat Uçotu Standartının mahiyyəti, onun tətbiq sahəsi, aktivlərin ilkin qiymətləndirilməsi, mübadiləsi, aktivin reyestri qaydaları praktik olaraq izah edilib və iştirakçıların sualları cavablandırılıb.

Sonda iştirakçılara sertifikatlar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Torpaq mülkiyyətçilərinin nəzərinə!

Muxtar respublikada fəaliyyət göstərən kənd təsərrüfatı məhsulları istehsalçılarının nəzərinə çatdırılır ki, 2022-ci ildə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən “Araz-3” Məhdud Məsuliyyətli Cəmiyyəti, “Gəmiqaya Taxıl Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti və digər taxıl qəbulu müəssisələri tərəfindən tələbatdan artıq istehsal olunmuş buğda, arpa və qarğıdalı məhsulları aşağıda qeyd edilmiş qiymətlərlə satın alınacaqdır:

*Buğda – 50 qəpik*
*Arpa – 40 qəpik*
*Qarğıdalı (dən üçün) – 35 qəpik*
*Qarğıdalı (yağ üçün) – 42 qəpik*

Bildirilir ki, bu məhsulların satın alınması aşağıda göstərilən tarixlərdən başlanılacaqdır:

*Arpa – 10 iyun 2022-ci il tarixdən*
*Buğda – 10 iyul 2022-ci il tarixdən*
*Qarğıdalı – 20 sentyabr 2022-ci il tarixdən*

Əkinçilərin nəzərinə çatdırılır ki, təqdim olunan məhsulun ödənişi yerində həyata keçiriləcəkdir. Yaranacaq suallarla bağlı aşağıda göstərilən əlaqə nömrələrinə müraciət edə bilərsiniz:

*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi– (036)-545-75-77, (050)-615-58-25*
*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi – (036)-545-20-39, (050)-250-10-63*
*“Gəmiqaya Taxıl Məhsulları” MMC – (070)-250-85-81*

### İtmişdir

Naxçıvan şəhər Qaraçuq kəndi 3-cü küçə, ev 11-də yaşayan Abbasova Nəzakət Kamran qızının adına olan AA-006445 nömrəli torpaq sahəsinin planı və ölçüsü, 07.01.2015-ci il tarixli MH-0039834 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Süleymanov Qabil Eyvaz oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 712